**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

## Qiymətli kağızlarla ticarət və maliyyə bazarları

***( 7.5 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***


***Müəllim(mühazirə):Ass. Məsimli Nərmin Afiq qızı***

***Müəllim(seminar):Ass.Məsimli Nərmin Afiq qızı***

**Kafedra**: **Maliyyə və iqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 118**

**İş nömrəsi: 268 94 53**

**Mob**: **055 917 70 90**

**İş saatları: 8:00 – 16:00**

**E-mail: nermin11117@gmail.com**


**GƏNCƏ-2021**

Müəllim iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxunulmalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə yarada bilərlər. E-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim olunan fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər.

## *Dərs cədvəli*

Dərslər aşağıdakı zamanlarda əyani qaydada auditoriyalada keçirilir:

Cümə axşamı, 17:00 – 18:20 (seminar)

## *Fənnin təsviri*

Qiymətli kağızlar bazarı maliyyə bazarının seqmentlərindən biridir. Qiymətli kağızlar bazarı pul vəsaitlərinə olan tələblə onun təklifinin qarşılıqlı əlaqədə olduğu münasibətlərdən ibarətdir. Qiymətli kağızlar bazarı kapitalın effektli sahələrə axınını təmin edir, iqtisadiyyata çeviklik verir ki, bu da pul ehtiyatlarının bir sahədən digər sahəyə keçməsini təmin edir və son nəticədə iqtisadi inkişafın tempini artırır. Bu proses inzibati amirlik metodları deyil, maddi maraq və könüllülük prinsipi əsasında həyata keçirilir. Dövlət qiymətli kağızları isə dövlət xərclərinin maliyyələşməsinə, bank sisteminin likvidliyini təmin etməyə, cəmiyyətdə sosial-iqtisadi inkişafa və digər problemlərin həllinə müsbət təsir edir. "Qiymətli kağızlarla ticarət və maliyyə bazarları" fənninin tədris edilməsinin çox böyük əhəmiyyəti vardır. Qiymətli kağızlar və fond birjaları mülkiyyət forması və tabeliyindən asılı olmayaraq bütün müəssisə və sahələrin inkişafını maliyyələşdirmək üçün vacib mənbələrdəndir. Vəsaitin qiymətili kağızlara qoyulması, kapitalın artırılması üçün əlverişli şərait yaratmaqla etibarlı dividend gətirir və müştərini inflasiyadan qoruyur. Fənn Azərbaycan iqtisadiyyatı üçün çox mühüm əhəmiyyət kəsb edən daxili investisiya və qiymətli kağızlar bazarı

problemini həll edə bilən mövzulara həsr olunduğu üçün olduqca aktualdır. Qiymətli kağızlar sahəsində biliklərin, təcrübənin və peşəkar kadrların azlığı və bu sahənin nisbətən gənc olması yeni nəşrlərin buraxılmasını zəruri edir. Ali məktəblərdə bu fənnin tədris edilməsi Azərbaycanda qiymətli kağızlar bazarında professional iştirakçıların daha da artmasına zəmin yaradacaq və bütövlükdə respublikada qiymətli kağızlar bazarının inkişafına təkan verəcəkdir. Azərbaycanda təhsilin interaktiv metoda keçirilməsi təhsilin keyfiyyətini artırmaqla beynəlxalq təcrübədə istifadə olunan üsulların respublikamızda tətbiqinə imkan yaradacaqdır. Fənn üçün nəzərdə tutulmuş mövzularda qiymətli kağızlarla ticarət üzrə xarici ölkələrin təcrübəsi və onun Azərbaycanda istifadə edilməsi imkanları öz əksini tapmışdır.

***Fənn tələbələrə aşağıdakıları təmin edəcəkdir:***

- qiymətli kağızların mənası, məqsəd və vəzifələri, həmçinin xüsusiyyətləri haqqında anlayışa malik olmaq;
- qiymətli kağızların müxtəlif növlər üzrə təsnifləşdirilməsini;
- ödəniş və əmtəə qiymətli kağızları haqqında biliklərə malik olmaq;
- maliyyə bazarlarının tərkibində olan digər bazarlar haqqında lazımi informasiyalara sahib olmaq;
- xarici emitentlərin qiymətli kağızlarının Azərbaycanda tədavülə buraxılması haqqında məlumatların mənimsənilməsi;
- birjada əqdlərin bağlanması və digər əməliyyatlarla tanış olmaq.

***Planlaşdırlan təlim nəticələri***

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:

- riskin səviyyəsinə görə qiymətli kağızların mövqelərini müəyyənləşdirmək;
- qiymətli kağızların müxtəlif meyarlar üzrə təsnifləşdirilməsini etmək;

- Azərbaycanda vekselin inkişaf istiqamətlərini müəyyən etmək;
- qiymətli kağızların forması və buraxılış şərtləri haqqında məlumatları təhlil etmək;
- təhlildən irəli gələn nəticələr hazırlamaq;
- birjada icra olunma müddətinə görə əqdlərin müqayisəli təhlilini aparmaq;
- Azərbaycanda qiymətli kağızların inkişaf mərhələlərinin müstəqil surətdə müqayisəli təhlilini aparmaq.

***Fənnin tematik təqvimi***

## 2.2. Fənnin mövzular üzrə planı

| № | Mövzunun adı | O cümlədən | |
|---|---|---|---|
| | | Cəmi | Seminar |
| **1** | **2** | **3** | **4** |
| 1 | Qiymətli kağızların iqtisadi mahiyyəti | 2 | 2 |
| 2 | Qiymətli kağızların təsnifatı | 4 | 4 |
| 3 | Ödəniş və əmtəə qiymətli kağızları | 4 | 4 |
| 4 | Qiymətli kağızların yerləşdirilməsi və tədavülü | 2 | 2 |
| 5 | Qiymətli kağızlarla əməliyyatlar və əqdlərin bağlanması | 2 | 2 |
| 6 | Maliyyə bazarlarının ümumi xarakteristikası | 4 | 4 |
| 7 | Azərbaycan Respublikasında maliyyə bazarlarının müasir vəziyyəti | 2 | 2 |
| 8 | Qiymətli kağızlar bazarı və onun | 4 | 4 |

| | | | |
|---|---|---|---|
| | tənzimlənməsi | | |
| 9 | Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları | 2 | 2 |
| 10 | Qiymətli kağızlar bazarında ticarətin təşkili | 2 | 2 |
| 11 | Beynəlxalq qiymətli kağızlar bazarı | 2 | 2 |
| | Cəmi: | 30 | 30 |

***Seminar***

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki və dörd saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur. Tələbələr hər dərsdə sual cavabda aktiv iştirak etməli, mövzunu sərbəst, aydın, ardıcıl danışmağı bacarmalıdır.

***Tələbələr üçün tövsiyələr:*** *Tələbələr auditoriyada fəal iştirak etməkdən, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

***Sərbəst işlər***

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan

çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.
Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

## *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılanApelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

## *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan imtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

## *Tövsiyə olunan ədəbiyyat*

1. Bakı fond birjasının rəsmi internet səhifəsi www.bfb.az

2.Экономикс Р. Макконел, Стэнли Л. Брю. 2009 год, 19 –издание.

3. Bank-Maliyyə terminlərinin izahlı lüğəti. R.Sədirxanov, R.Həsənov Bakı 2011-ci il

4. www.muhasibat.az internet səhifəsinin elektron kitabxanası.

5. Maliyyə pul tədavülü kredit Dr. Z. Fərrux, dos V. Zeynalov -2007

6. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519 III Q nömrəli Qanunu.

7. 2011-2020-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarının inkişafı "Dövlət proqramının təsdiq edilməsi haqqında"Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (16 may 2010-cu il).

8. "Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (3 fevral 2016-cı il).

9. "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanunu (10 iyun 2005-ci il).

10. Azərbaycan Respublikası Mərkəzi Bankı. İllik hesabat. 2015-ci il.

11. Abbasov A.H. Azərbaycanda maliyyə bazarının formalaşması və bazar iqtisadiyyatında maliyyə-kredit sisteminin problemləri. Bakı, 2000.

12. Abbasov A.H. Qiymətli kağızlar bazarının formalaşması və inkişafı perspektivləri. Bakı, 2005.

13. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Maliyyə nəzəriyyəsi. Dərslik. Bakı, 2014.

14. Ataşov B.X., Novruzov N.A., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi. Dərslik. Bakı, 2009.

15. Bağırov D.A., Həsənli M. Maliyyə. Dərs vəsaiti. Bakı, 2011.

16. Böyük iqtisadi ensiklopediya. 7 cilddə. İdeya rəhbəri və baş redaktor akademik Z.Ə.Səmədzadə. Bakı, 2012-2015.

17. Xudiyev N.N. Sığorta işi. Bakı, 2003.

18. İsgəndərov R.Ə., Sadıqov R.F. Qiymətli kağızlar və banklar. Dərs vəsaiti. Bakı, 2014.

19. İsrafilov H.A. Qloballaşma şəraitində istehlak kooperativlərinin təkmilləşdirilməsi istiqamətləri. Bakı, 2009.

20. Kərimov A.F., Babayev A.A. Qiymətli kağızlar bazarı. Dərslik. Bakı, 2003.
21. Məhərrəmov A.M. İqtisadi diplomatiya. Dərslik. Bakı, 2013.